**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏN SONRAKI DÖVRDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

İxtisas: 5901.01- Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Zaur Vaqif oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: siyasi elmlər doktoru, professor
**Hikmət Baba oğlu Məmmədov**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Ramid Söhbət oğlu Hüseynov**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Samirə İlham qızı Həbibbəyli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: ____________ siyasi elmlər doktoru,dosent
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: ____________ siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

A
G

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası 2020 - ci ilin 44 günlük müharibəsi ilə öz dövlətçilik tarixinin mühüm mərhələsinə qədəm qoydu. Bununla da, Avrasiyanın orta xəttində yerləşən bu vacib regionda yeni geosiyasi konfiqurasiya formalaşdı. Sözsüz ki, Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün təmin edilməsi ilə nəticələnən 44 günlük müharibə xarici siyasət prioritetlərinin bir daha nəzərdən keçirilməsi ilə nəticələnmişdir. Bu kontekstdə, Azərbaycan Respublikasının xarici siyasətində yeni məqsəd və hədəflərin formalaşdırılması və bəyan edilməsi, ölkənin milli maraqlarını və dövlətçiliyini qorumaq, gücləndirmək üçün atdığı strateji addımlardandır.

44 günlük müharibə nəticəsində Ermənistan ilə davam etməkdə olan danışıqlar, bu danışıqlara regional və beynəlxalq aktorların yanaşması mövzunu daha da aktuallaşdırır. Regionda dayanıqlı sabit sülhün təmin olunması məqsədilə atılan addımlar, iqtisadi inteqrasiyanın sürətləndirilməsi və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsi kimi məsələlər mövzunun tədqiqatını vacib edir.

Mövzunun tədqiqatı eyni zamanda beynəlxalq arenada Azərbaycan Respublikasının yerini və rolunu bir daha təsbit etmək, onun apardığı çoxvektorlu balanslı xarici siyasət modelinin öyrənilməsi üçün vacibdir. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın ənənəvi enerji, yaşıl enerji sahələrindəki yeni təşəbbüsləri, nəqliyyat – kommunikasiya və iqtisadi layihələrlə bağlı regional və beynəlxalq əməkdaşlıq çərçivəsində etdiyi təklifləri, bir sıra qlobal aktorlarla əlaqələrinin dərinləşdirilməsi, ölkənin dünyadakı yeri və rolunu daha da gücləndirmişdir.

44 günlük müharibədən sonra Azərbaycan Respublikası qlobal çağırışların həll edilməsi istiqamətində mühüm beynəlxalq aktora çevrilmişdir. Bu kontekstdə onun sivilizasiyalararası dialoq, islamofobiya ilə mübarizədə tutduğu mövqe, xüsusilə neokolonializmə qarşı mübarizədə fəal qlobal siyasət aparması mövzunun tədqiqatını aktual edir.

2020 -ci ildə baş tutan müharibədən sonra xarici siyasətin digər mühüm istiqamətləri kimi Qərbi Azərbaycana qayıdış, Zəngəzur dəhlizinin açılması çıxış edir. Əgər 44 günlük müharibəyə qədər uzun müddət ərzində Azərbaycanın daxili və xarici siyasətində əsas hədəf Qarabağ və Şərqi Zəngəzur torpaqlarının işğaldan azad edilməsinə yönəlmişdirsə, müharibədən sonra Qərbi Azərbaycan mövzusu prioritetlərdən birinə çevrildi. Azərbaycan və Ermənistan arasında aparılan ikitərəfli və çoxtərəfli danışıqlarda "Zəngəzur dəhlizi" terminindən istifadə edilməyə başlandı, bu nəqliyyat xəttinin açılması danışıqların əsas istiqamətlərindən biri oldu. Təsadüfi deyil ki, danışıqların getdiyi hazırkı dövrdə qonşu dövlətlərin və bölgədə maraqlı olan aktorların əsas diqqəti Qərbi Zəngəzurda nəqliyyat xəttinin hansı razılaşmalar əsasında işə salınacağı ilə bağlıdır.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının xarici siyasətində prioritetlərin formalaşması və müəyyənləşməsini öyrənmək, bu prosesləri milli maraqlar kontekstində tədqiq etmək, proseslərin regiona və dünyaya təsirini araşdırmaq həm elmi, həm də praktik baxımından əhəmiyyətlidir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsindən sonra xarici siyasət davranışında prioritetlərlə bağlı bir sıra yeniliklər oldu. Prezident İlham Əliyev Milli Məclisin yeddinci çağırışının ilk iclasında Azərbaycan Respublikasının xarici siyasət prioritetləri haqqında danışarkən bu mövzuda əsas qiymətləndirmə kriteriyasının dövlətin suverenliyinin bərpasına olan münasibət olduğunu qeyd etmişdir. Müharibə vaxtı və müharibədən sonra Azərbaycanın ərazi bütövlüyünün bərpasına dəstək verən, suverenliyini tanıyan dövlətlər dost və qardaş kimi qəbul edilir, əksinə, separatizmə dəstək verən, yeni reallığı qəbul etməyən ölkələrlə bağlı isə onların apardığı siyasətə müvafiq olaraq yanaşma tətbiq edilir. Buradan belə başa düşülür ki, beynəlxalq aktorların Azərbaycana yanaşmasında "diqtə", "təzyiq" kimi elementlərə yer yoxdur və ancaq qarşılıqlı hörmət əsasındakı münasibətlərdən söhbət gedə bilər. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, 44 günlük müharibə və antiterror tədbirlərindən sonra ölkənin beynəlxalq mövqeyi və nüfuzu daha da möhkəmlənib və hazırda Azərbaycanın xarici siyasət arealı daha geniş coğrafiyalara yayılır. Prezident İlham Əliyev tarixi qələbədən sonra ölkənin beynəlxalq arenada mövqeyinin daha da gücləndiyini xüsusilə vurğulayaraq, indi Azərbaycanın dünyadakı statusunun və təsir

imkanlarının daha da genişləndiyini, bir çox regionlarla fəal təmas quruldğunu və bu əlaqələrin sərmayə qoyuluşu, çoxşahəli əməkdaşlıq üçün yeni imkanlar yaratdığını qeyd edir[1]. Bu sadalananlar, 44 günlük müharibədən sonra Azərbaycanın ənənəvi tərəfdaşlarla münasibətlərini inkişaf etdirməklə yanaşı, yeni tərəfdaşlıqlara, eyni zamanda, əməkdaşlıqlara açıq olduğunu və ölkənin dünyanın daha çox regionunda mövqeyinin möhkəmlənməsi istiqamətində kompleksli siyasət apardığını göstərir.

Dissertasiya işinin işlənmə dərəcəsini təhlil edərkən mövzu ilə bağlı müxtəlif dillərdəki ədəbiyyatlardan geniş istifadə edilmişdir. N.Əliyevin "Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası: hüquqi aspektlər" monoqrafiyasında ermənilərin Azərbaycana qarşı ərazi iddialarının hüquqi cəhətdən əsassız olduğu, Azərbaycanın ərazi bütövlüyünün bərpası (2020) və tam suverenliyinin təmin olunması (2023) ilə bağlı hüquqi məsələlər araşdırılır. Elmi redaktoru olduğu "Ərazi bütövlüyünə dair pozulmuş hüquq normalarının bərpası Azərbaycan dövlətinin konstitusiya borcudur" məqalələr toplusunda beynəlxalq hüququn ermənilər tərəfindən kobud şəkildə pozulması, Azərbaycan Respublikasının qanunvericiliyi, hüquqi – normativ aktları təhlil edilmişdir. "Day.az: Şuşa ilə görüş gözləntisində: erməni faciəsinə dair şərhlər" adlı kitabda isə qələbənin siyasi və tarixi tərəfləri aydınlaşdırılır[2].

R.Sevdimaliyevin və E.Sevdimalıyevin "İkinci Qarabağ müharibəsi və yeni geosiyasi reallıqlar" adlı kitabında müharibənin gedişatı, Üçtərəfli Bəyanat və ondan sonrakı proseslər geniş şəkildə təhlil edilir, Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqlar qeydlərlə

---

[1] Azərbaycan Prezidenti İlham Əliyev yeddinci çağırış Milli Məclisinin ilk iclasında iştirak edib: [Elektron resurs] / President.az – 23.09.2024. URL: https://president.az/az/articles/view/66895

[2] Алиев, Н. Восстановление нарушенных правовых норм о территориальной целостности- конституционный долг Азербайджанского Государства. // - Харьков: Право восстановления территориальной целостности государства. Сборник статей, - «Факт», -2020. - с. 31.; Алиев, Н. Восстановление территориальной целостности и суверенитета Азербайджана: Правовые аспекты. / Н. Алиев. - Баку: Elm və təhsil, - 2023. -287 с.; Алиев, Н. Day.az: в ожидании встречи с Шушой: Комментарии к трагедии армянства. Вып. 2. / Н.Алиев. - Баку: Маариф, - 2022. -191 с.

ətraflı izah edilir. Əsər postmüharibə dövrünün gerçəklikləri və hazırda formalaşan yeni geosiyasi konfiqurasiyanın düzgün şəkildə öyrənilməsi baxımından önəmlidir[3].

İ.Nuriyevanın "Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinə etnosiyasi yanaşma" monoqrafiyası adından göründüyü kimi beynəlxalq hüququn iki prinsipini detallı şəkildə təhlil edərək erməni yalanını ifşa edir və 44 günlük müharibənin siyasi - hüquqi tərəflərini əsaslandırır[4].

H.Babaoğlunun beynəlxalq münasibətlər nəzəriyyəsinin vacib dərsliklərindən sayılan "Dünya siyasəti və beynəlxalq münasibətlər" və "Xarici siyasət" kitabları 44 günlük müharibədə qələbənin mahiyyəti və ondan sonrakı proseslərin elmi izahı baxımından əhəmiyyətlidir. Əsərlərdə xarici siyasət davranışının xüsusiyyətləri nəzəriyyə ilə təcrübənin uzlaşdırılması nəticəsində daha da geniş şəkildə aydınlaşır[5].

C.Vəliyev "Erməni millətçi irredentizmi və Qarabağ müharibələri" adlı kitabında beynəlxalq münasibətlərdə irredentizm məsələsini araşdıraraq ermənilərin Azərbaycan torpaqlarına ərazi iddiasını bu nöqteyi – nəzərdən tədqiq edir[6].

H.Məmmədovanın "Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" kitabı 44 günlük müharibəyə qədər xarici siyasətin prioritetlərinin təhlili və hadisələrin retrospektiv tətqiqi baxımından maraqlıdır. K.Makili-Əliyevin "Beynəlxalq hüquqi sənədlərdə və beynəlxalq hüquqda Dağlıq Qarabağ münaqişəsi" kitabı Azərbaycan Respublikasının haqlı mövqeyinin hüquqi tərəflərini əsaslandıraraq mövzunun ərazi bütövlüyü çərçivəsində həllinin yeganə çıxış yolu

---

[3] Sevdimaliyev, R. İkinci Qarabağ müharibəsi və yeni geosiyasi reallıqlar / R.Sevdimaliyev, E. Sevdimalıyev. – Bakı: AzPoliqraf, - 2023. - 320 s.

[4] Nuriyeva İ. Ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərinə etnosiyasi yanaşma / İ.Nuriyeva, elmi red.,S. Ramiz. - Bakı: Mütərcim, - 2021. – 352 s.

[5] Babaoğlu, H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. / H.Babaoğlu. Bakı: Çinar çap, -2010. -568 s. ; Babaoğlu, H. Xarici siyasət (dərslik) / H.Babaoğlu. - Bakı: ELM, - 2019.- 324 s

[6] Vəliyev C. Erməni millətçi irredentizmi və Qarabağ müharibələri / C.Vəliyev. Bakı: BMTM, - 2024. – 116 s.

olduğunu göstərir[7].

A.Attarın Qarabağ Zəfəri ilə əlaqədar kitabı İkinci Qarabağ müharibəsində Azərbaycanın hərbi uğurları və "bir millət, iki dövlət" fəlsəfəsi ilə bölgədə formalaşan yeni tarazlıq haqqında məlumat təqdim edir. Eyni zamanda, bu tədqiqatda tarixi baxımdan hadisələrin təhlili aparılır[8].

A.Mirzəzadə "Vətən müharibəsinin tarixi – siyasi dərsləri" kitabında qələbənin səbəbləri və postmüharibə dövrünə nəzər salınmışdır. Müharibədən sonra yazılan yeni nəşrdə ermənilərin işğalçılıq siyasətinin tarixi – siyasi aspektləri, 1990-cı illərdə baş tutan erməni işğalçılığı, 44 günlük müharibənin gedişatı, Ermənistanın kapitulyasiyası, müharibədən sonrakı dövrün xarakteristikası izah olunmuşdur[9].

Xarici siyasətdə, dövlətin inkişafında lider faktoru olduqca önəmlidir. E.Nəsirov müharibədən sonra yazdığı geniş məqalələrində tarixi qələbədə lider faktoruna toxunaraq bu gün beynəlxalq arenada ölkəmizin xüsusi statusunu məhz Prezident İlham Əliyevin apardığı sistemli ideoloji -siyasi xətt ilə izah etmişdir[10].

Elmi redaktoru K.Şükürovun olduğu "Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru" və "Vətən müharibəsi tarixi: Ərazi bütövlüyünün bərpası. Şəxsiyyət faktoru" kitablarında qələbədə şəxsiyyət – siyasi lider faktoruna toxunulur, Prezident İlham Əliyevin qələbə strategiyası müxtəlif müəlliflər tərəfindən hərtərəfli şəkildə təhlil edilir,

---

[7] Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi / H. Məmmədova. Bakı: Elm, -2009, -360 s.; Makili-Aliyev, Kamal. Nagorno-Karabakh Conflict in International Legal Documents and International Law/ K.Makkili – Aliyev. – Baku: SAM, 2013. – 136 p.

[8] Attar, A. Qarabağ zəfəri: 44 günün pərdəarxası. tərc.: K. Ələkbərova, S. Nağı. / A Attar. - Bakı: Azərbaycan Dövlət Tərcümə Mərkəzi, -2021.- 158 s.

[9] Mirzəzadə, A. Vətən müharibəsinin tarixi – siyasi dərsləri. / A.Mirzəzadə. – Bakı: Azərbaycan, - 2022. -282 s.

[10] Nəsirov, E. İlham Əliyev: Tarixi şəxsiyyət və qlobal siyasi lider : [Elektron resurs] / Yeni Azərbaycan Partiyasının rəsmi qəzeti və internet saytı. – 23.12.2024. URL: https://yap.org.az/az/view/news/90704/ilham-eliyev-tarixi-shexsiyyet-ve-qlobal-siyasi-lider; Nəsirov, E. Tarix yazan və adını tarixə yazdıran lider: [Elektron resurs] / Xalq qəzeti. -14.10.2023. URL: https://xalqqazeti.az/az/siyaset/143929-tarix-yazan-adini-tarixe-yazdiran

qalibiyyətdə ideoloji, sosial - iqtisadi, diplomatik istiqamətlər izah edilir[11].

E.Əhmədovun “Diplomatik fəaliyyət” elmi əsərində qələbənin banisi Prezident İlham Əliyevin diplomatik fəaliyyətini geniş şəkildə işıqlandırmışdır. Yazıda Azərbaycan prezidentinin qələbə strategiyası, onun diplomatik nailiyyətləri sayəsində İkinci Qarabağ müharibəsindəki qazanılan uğurlar təhlil edilmişdir. “Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti” və “Şuşa – Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı” kitablarında da müəllif lider faktoruna toxunaraq işğal və işğaldan sonrakı dövrlərə aydınlıq gətirmişdir[12].

44 günlük müharibədən sonrakı tarixə nəzər saldıqda C.Cahangirlinin “Post-konflikt dövründə Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq” kitabını da qeyd etmək lazımdır. Kitabda Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli prosesindən sonra yaranan geosiyasi reallıqlar və onların regional əməkdaşlığa təsiri təhlil olunur. Eyni zamanda, sabitlik və iqtisadi inkişafın təmin edilməsində regional inteqrasiyanın rolu araşdırılır[13].

Region ətrafında geosiyasi ziddiyyətlərin aktuallaşdığı dövrdə “Qafqazın təhlükəsizliyində geosiyasi faktorlar” haqqında yazan C.Eyvazov 2020-ci ilə qədər və ondan sonrakı dövrü müqayisə edərək yeni vəziyyət və perspektivlər istiqamətində təhlillər aparıb[14].

V.Məmmədzadə və X.İsgəndərovun həmmüəllif olduqları Azərbaycan Respublikasının üzləşdiyi təhdidlərdən və təhlükəsizlikdən bəhs edən “Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional

---

[11] Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru / Elmi redaktor: Kərim Şükürov.- Bakı: Şərq – Qərb, -2021. - 444 s.; Vətən müharibəsi tarixi: ərazi bütövlüyünün bərpası. Şəxsiyyət faktoru / Elmi redaktor: Kərim Şükürov. – Bakı: Şərq- Qərb, - 2024. – 228 s.

[12] Əhmədov, E. Diplomatik fəaliyyət // - Bakı: Vətən müharibəsi tarixi: şəxsiyyət faktoru, – 2021. – s. 97-127; Əhmədov, E. Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti. / E. Əhmədov. – Bakı: Zərdabi Nəşr, - 2023. – 200 s.; Əhmədov, E. Şuşa – Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı / E. Əhmədov. –Bakı: Zərdabi Nəşr”, - 2021. – 180 s.

[13] Cahangirli, C. Post-konflikt dövründə Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq2 / C. Cahangirli. -Bakı: Elm və təhsil, - 2021. - 164 s.

[14] Эйвазов, Дж. геополитических факторах безопасности на Кавказе. // Bakı: Beynəlxalq münaqişələr və təhlükəsizlik problemləri. Elm və təhsil, -2024. - s.26-37.

aspektləri" kitabında Cənubi Qafqazda böyük güclərin geosiyasi maraqları və rəsmi Bakının apardığı xarici siyasət təhlil edilir[15].

44 günlük müharibədən sonra ölkəmizin xarici siyasətinin ən mühüm elementlərindən birini region dövlətlərinə inteqrasiya layihələrini təqdim etməsi təşkil edir. Bu baxımdan, münaqişələrin və ziddiyyətlərin yeni inteqrasiya layihələrinin reallaşmalarının qarşısını alması, uzun müddət idi ki elm adamları tərəfindən vurğulanırdı. H.Hüseynova "Müasir inteqrasiya prosesləri" adlı kitabında bölgədəki münaqişələrin inteqrasiyaya ən böyük maneələrdən biri olmasını xüsusilə qeyd edir[16].

Müharibənin bitməsindən sonra Azərbaycan tərəfindən regionda yeni əməkdaşlıq layihələri mövzusuna toxunan M. Əliyeva "Ermənistan – Azərbaycan münaqişəsinin bitməsinin regional əməkdaşlıqda yeni platformanın yaranması" məqaləsində sülhün möhkəmləndirilməsi baxımından ayrı–ayrı dövlətlərlə birgə əməkdaşlıq layihələrindən bəhs etmişdir[17].

Bunlardan əlavə, son illərdə analoji sahədə müxtəlif məqalələr topluları da nəşr olunmuşdur. Layihə rəhbəri Z.Məmmədov, elmi redaktoru N.Mustafanın olduğu "Qərbi Azərbaycan: tarixi-siyasi aspektlər" adlı kitabda Qarabağ və Şərqi Zəngəzurda işğala son verilməsindən sonra əsas ideoloji istiqamətlərdən biri sayılan Qərbi Azərbaycan mövzusunda tarixi və siyasi baxımdan ətraflı təhlillər təqdim olunur. "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanı zəfərə aparan yol" adlı nəşrdə isə münaqişənin siyasi və hərbi həlli yolları, xüsusilə də Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbə və bunun münaqişənin həllindəki əhəmiyyəti vurğulanmışdır. Hər iki əsər

---

[15] Məmmədzadə, V. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri. / V. Məmmədzadə, X. İsgəndərov.- Bakı: Unicopy, - 2020. – 145 s.

[16] Hüseynova H. Müasir inteqrasiya prosesləri. Dərslik. / H.K.Hüseynova. - Bakı, - 2010. - 300 s.

[17]Əliyeva, M. "Ermənistan – Azərbaycan münaqişəsinin bitməsinin regional əməkdaşlıqda yeni platformanın yaranması" // - Bakı: Beynəlxalq münaqişələr və təhlükəsizlik problemləri, Elm və təhsil, -2024. - S.61-70.

Azərbaycanın milli maraqları və tarixi ədalətin bərpası kontekstində vacib elmi mənbələrdir[18].

Beyin mərkəzləri tərəfindən postmüharibə dövründə dərc edilən jurnallar siyahısında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) analitik materialları xüsusi maraq doğurur[19]. Eyni zamanda Sosial Tədqiqatlar Mərkəzinin (STM) ekspertlərinin təhlillərindən ibarət analitik tədqiqat vəsaitlərini də qeyd etmək olar[20]. Analitik materiallarda müxtəlif elmi metodlardan, o cümlədən statistik məlumatlardan istifadə edilərək Azərbaycan - ABŞ, Azərbaycan – Aİ münasibətləri təhlil edilmiş, o cümlədən ikitərəfli münasibətlərdəki perspektivlər və çağırışlara aydınlıq gətirilmişdir.

Eyni zamanda, Türkiyə və İran, həmçinin ABŞ, Aİ və Rusiya kimi aktorların Cənubi Qafqaz siyasəti ilə bağlı, eləcə də Azərbaycan Respublikasının postmüharibə dövründəki xarici siyasəti ilə əlaqədar müəyyən dissertasiya tədqiqatları aparılmışdır. Bunlara nümunə olaraq Ə.Heydərov, G.Mehdizadə, R.Kərimova, G.İsmayılzadə və başqalarının tədqiqatlarını göstərmək olar[21].

---

[18] Qərbi Azərbaycan: tarixi-siyasi aspektlər (məqalələr toplusu). / Elmi redaktor: Nazim Mustafa. - Bakı: Elm və təhsil, -2023. - 360 s.; Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanı zəfərə aparan yol // Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi; Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, - Qanun Nəşriyyatı, - Bakı: - 2021. - 232 s.

[19] Azerbaijan – US relations. New momentum for reinvigorating partnership. // Baku: AİR Center, - 2022. – 30 p. ; European Union –Azerbaijan relations. // Baku: -AİR Center, - 2023. – 34 p.

[20]Azərbaycana qarşı sanksiyalarda erməni lobbiçiliyi və siyasi korrupsiya. Şəbəkə, faktlar, ifşa. Analitik hesabat. // Sosial Tədqiqatlar Mərkəzi. MM-S. – Bakı. - 2024. – 100 s.

[21] Heydərov, Ə. Müasir dövrdə Rusiya Federasiyasının Cənubi Qafqaz siyasəti: / Tarix üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2022. -163 s.; Mehdizadə, G. Azərbaycan Respublikasının Şərq-Qərb enerji və nəqliyyat dəhlizlərini inkişaf etdirmək siyasəti: (1993-2003-cü illər) : / Tarix üzrə fəlsəfə d-dis. avtoreferatı. /- Bakı, 2022. -30 s. ; Kərimova, R. Ədalət və inkişaf partiyası iqtidarı dövründə Türkiyə Respublikasının Cənubi Qafqaz siyasəti: siyasi və müqayisəli təhlil 2002-2014: / Siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2024. - 22 s.; İsmayılzadə, G. Aİ-nin və ABŞ-ın Cənubi Qafqaz üzrə xarici siyasətinin müqayisəli təhlili: / Siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / -Bakı, 2022. -26 s.

Türk dilindəki ədəbiyyata diqqət yetirdikdə münaqişənin beynəlxalq siyasətdəki yerinə və roluna və regiondakı vəziyyətə təsiri ilə bağlı təhlillərə rast gələ bilərik. Y.Sait “ATƏT, AB və Minsk qrupunun Dağlıq Qarabağ siyasəti” adlı əsərində beynəlxalq təşkilatların münaqişənin həlli prosesindəki siyasətini və rolunu analiz edərək, onların effektivliyini və məhdudiyyətlərini müzakirə edir. A.Sapmazın “İranın Azərbaycana yönəlik xarici siyasəti: İkinci Qarabağ müharibəsinin təsirləri” adlı məqaləsində isə 44 günlük müharibənin İran-Azərbaycan münasibətlərinə təsiri araşdırılır və İranın regiondakı geosiyasi mövqeyi təhlil edilir[22].

Rusdilli ədəbiyyatdan, R.Arakelovun “Dağlıq Qarabağ: faciənin günahkarları məlumdur” əsərində müəllifin öz şahidlik etdiyi hadisələrə əsaslanaraq münaqişəyə dair özünəməxsus baxışı təqdim olunur. Müəllif bu dövr ərzində qarşılaşdığı faktları, onların izahını və özünün emosional reaksiyalarını ətraflı şəkildə təsvir edir[23]. A.Şirokoradın “Qarabağ: qədim torpaqda minillik müharibə” kitabında isə Cənubi Qafqazın coğrafi və tarixi şəraiti əsasında regionun etnik, dini və siyasi münaqişələrinin yaranma səbəbləri araşdırılır, eləcə də bölgənin perspektivi təhlil edilir[24]. Hər iki əsər münaqişənin müxtəlif aspektlərini işıqlandıraraq, oxuculara dərin anlayış qazandırır.

Azərbaycan Respublikasının xarici siyasətinin siyasi, iqtisadi, mədəni, diplomatik istiqamətlərinin nəzəri tərəflərinin təhlili zamanı beynəlxalq münasibətlərə dair bır sıra masaüstü kitablar sayılan əsərlər maraq doğurur. R.Gilpin “Beynəlxalq münasibətlərin siyasi iqtisadiyyatı” əsərində beynəlxalq münasibətlərdə iqtisadi gücün rolu və onun dövlətlərin geosiyasi strategiyalarına təsirini təhlil edir. Kitab qlobal iqtisadi sistemdəki güc dinamikalarının dövlətlərarası əlaqələrə təsirini izah edərək, siyasi və iqtisadi maraqların necə uzlaşdırıldığını göstərir. C.Nayın “Yumşaq güc: dünya siyasətində uğur vasitələri” əsəri

---

[22]Sait, Y. “AGİT, AB ve Minsk Grubunun Dağlık-Karabağ Politikası”, Dünden Bugüne Karabağ Sorunu, Editör: Haydar Çakmak, Yenisey Yayınevi, Ankara, 2021, ss.161-177.; Sapmaz, A. “İran’ın Azerbaycan’a Yönelik Dış Politikası: İkinci Karabağ Savaşı’nın Belirleyiciliği”, SDE Akademi Dergisi, Cilt 2, Sayı 4, 2022, (s. 12 – 43).

[23] Аракелов, Р. Нагорный Карабах: Виновники трагедии известны. / Р. Аракелов. - Баку: Ларец, - 2020. -146 с.;

[24] Широкорад, А. Карабах: Тысячелетняя война на древней земле / А. Широкорад . -Москва: Вече, -2024. -384 с.

dövlətlərin yumşaq güc vasitəsilə qlobal siyasətdə necə təsir göstərə biləcəyini izah edir. Kitab mədəniyyət, dəyərlər və ideologiya vasitəsilə siyasi məqsədlərə nail olunmağın üstünlüklərini analiz edir. Bu əsərlər Azərbaycanın xarici siyasətində iqtisadi güc, diplomatik balans və yumşaq güc strategiyalarının tətbiqi yollarını nəzəri və praktiki baxımdan daha yaxşı anlamağa imkan verir[25].

Z.Bjezinskinin "Seçim: dünya hökmranlığı və ya qlobal liderlik" əsəri ABŞ-ın qlobal siyasətdəki liderlik mövqeyini saxlamaq üçün müxtəlif geosiyasi və iqtisadi strategiyaları araşdırır. Müəllif dövlətlərin qlobal nizamda həm hegemonluq, həm də əməkdaşlıq vasitəsilə təsir imkanlarını gücləndirməsinin yollarını göstərir. Onun "Böyük şahmat taxtası: Amerikanın hökmranlığı və onun geostrateji imperativləri" əsəri ABŞ-ın Avrasiya məkanındakı geosiyasi üstünlüyünü qorumaq üçün həyata keçirdiyi strategiyaları təhlil edir. Əsər xüsusilə Avrasiyanın strateji əhəmiyyətini vurğulayaraq bu regionun qlobal güc balansına təsirini açıqlayır. S.Hantinqtonun "Sivilizasiyaların toqquşması" əsəri soyuq müharibədən sonrakı dövrdə mədəniyyətlərarası qarşıdurmaların beynəlxalq siyasətə təsirini izah edir. Müəllif mədəniyyət və sivilizasiya fərqliliklərinin müasir münaqişələrin əsas mənbələrindən biri olduğunu irəli sürür. Bu əsərlər Azərbaycanın xarici siyasətində mədəniyyətlərarası dialoq, regional liderlik və geosiyasi manevrlərin effektiv şəkildə tətbiqini nəzəri cəhətdən gücləndirmək üçün dəyərli çərçivə təqdim edir, eyni zamanda İkinci Qarabağ müharibəsinə qədər və ondan sonra Azərbaycan diplomatiyasının necə çevik və rasional siyasət xətti apardığını göstərmiş olur[26].

İngilis dilindəki mənbələr arasında T.Qoltsun da adını çəkmək olar. Onun "Azərbaycan gündəliyi" kitabı 2020 -ci il hadisələrinin

---

[25] Gilpin, R. The political economy of international relations. Pincetton Universty press, –1987. – 472 p.; Киссинджер, Г. Дипломатия. – М.: Лодомир, -1997. –579 с.; Nye, J. S. Soft Power. The Means to Success in World Politics. New York: Public Affairs,- 2004. – 192 p.

[26] Бжезинский, З. Выбор: мировое господство или глобальное лидерство / – М.: Международные отношения, 2004. – 288 с.; Бжезинский, З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы / – М.: Международные отношения, -1999. – 256 с.; Хантингтон, С. Столкновение цивилизаций / – М.: АСТ, -2003. – 603 с.

düzgün dərk edilməsi üçün 30 il əvvəl baş verənlərlə müqayisə baxımından maraq doğurur. Eyni zamanda H.Yavuz və M.Gunterin "Ermənistan və Azərbaycan arasında Qarabağ münaqişəsi. Səbəblər və nəticələr " kitabında 44 günlük müharibəyə gətirən yol və müharibənin nəticələri təhlil edilib.[27] Daha bir müəllif Svante K. "Mərkəzi Asiyanın və Qafqazın dəyişən geosiyasəti" kitabında uzun müddət regionu yaxından izləyən şəxs kimi hazırda dəyişən vəziyyətdə bölgədəki proseslərə toxunur[28].

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə həyata keçirdiyi xarici siyasət kursudur. Tədqiqatın predmeti isə, 44 günlük müharibədən sonrakı dövrdə Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərin təhlilidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın xarici siyasətini və onun prioritet istiqamətlərini tədqiq etməkdir.

Məqsədə müvafiq olaraq aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

–Beynəlxalq münasibətlər nəzəriyyələri kontekstində Azərbaycan Respublikasının xarici siyasətinin, xarici siyasətinin konseptual əsaslarının tədqiq edilməsi;

– Yeni geosiyasi şəraitdə regiondakı proseslərə birbaşa təsir edən Azərbaycan -Ermənistan münasibətlərinin araşdırılması;

– İkinci Qarabağ müharibəsinin nəticəsində yaranmış yeni geosiyasi reallıqların və Azərbaycanın xarici siyasət prioritetlərinin təhlil edilməsi;

– Müharibə vaxtı və müharibədən sonrakı dövrdə beynəlxalq güclərin Azərbaycanla bağlı davranışlarının siyasi nöqteyi-nəzərdən tədqiq edilməsi;

– Azərbaycanın Türkiyə və Türk Dövlətləri Təşkilatı ilə münasibətlərinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

---

[27] Goltz, T. Azerbaijan diary / Oxford: Routledge, -1998. -496 p.; Yavuz H, Gunter M. The Karabakh Conflict Between Armenia and Azerbaijan: Causes & Consequences / Palgrave Macmillan, - 2022. -224 p.

[28] Svante E.Cornell. The changing geopolitics of Central Asia and the Caucasus /Afpc Press, - 2023. -214 p.

– Cənubi Qafqazın mövcud geosiyasi durumunda Azərbaycanın Rusiya və İranla münasibətlərinin yeni aspektlərinin təhlil edilməsi;

– Dəyişməkdə olan geosiyasi proseslər fonunda ABŞ-Azərbaycan və Aİ-Azərbaycan münasibətlərinin səciyyəvi xüsusiyyətlərinin təhlil edilməsi.

**İşin tədqiqat metodları.** Dissertasiyada bir neçə əsas tədqiqat metodu tətbiq edilmişdir. Analitik metod vasitəsilə xarici siyasətin dəyişən istiqamətləri hərtərəfli təhlil olunmuş və beynəlxalq münasibətlər nəzəriyyələri ilə əlaqələndirilmişdir. Tarixi metoddan istifadə edərək, müharibədən əvvəlki və sonrakı dövrlər müqayisə edilmiş, Azərbaycanın xarici siyasət strategiyasının tarixi inkişaf xətti izlənilmişdir. Sistemli yanaşma metodu çərçivəsində müxtəlif aktorların və dəyişən geosiyasi konfiqurasiyanın təsiri qiymətləndirilmişdir. Komparativ metoddan istifadə edərək müxtəlif dövlətlər arasında əməkdaşlıq və qarşıdurma vəziyyətləri müqayisəli şəkildə təhlil edilmişdir. Bu metodların birgə tətbiqi tədqiqatın həm nəzəri əsaslarını gücləndirmiş, həm də praktik əhəmiyyətini artırmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat nəticəsində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

– Azərbaycanın çoxvektorlu xarici siyasəti və balanslı yanaşması ölkəni qlobal ticarət yollarının mərkəzi və regional sabitliyin əsas təminatçısı kimi strateji mövqeyə yüksəltmişdir.

– Azərbaycan ilə Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalanması ikitərəfli münasibətlərdə yeni səhifənin açılması deməkdir. Bu, regionun təhlükəsizliyini və gələcəyini müəyyən edən, bölgədə geosiyasi konfiqurasiyaya təsir edən, qonşu dövlətlərin Azərbaycana münasibətdə daha ehtiyatlı yanaşmalarını təmin edən əhəmiyyətli sənəddir.

– Türk Dövlətləri ilə münasibətlərin inkişafı Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edir.

– 44 günlük müharibədən sonra Azərbaycanın beynəlxalq miqyasda apardığı siyasətdə atdığı rasional – praqmatik addımları onun Ermənistan ilə danışıqlarda daha da üstün mövqe tutması, Qarabağın dağlıq hissəsində dövlət suverenliyinin tam bərpa olunması ilə nəticələnmişdir. Qərbi Azərbaycana qayıdış və Zəngəzur dəhlizinin açılması Ermənistan ilə aparılan ikitərəfli və çoxtərəfli danışıqlarda əsas mövzular sırasına daxil edilmişdir.

– Azərbaycanın xarici siyasətində yeni istiqamətlərdən biri kimi müəyyənləşdirilən neokolonializmə qarşı mübarizə dövlətin milli maraqlarının qorunması və beynəlxalq imicinin daha da yüksəlməsi ilə nəticələnmişdir.

– Cənubi Qafqaz ABŞ və Rusiya arasında geosiyasi ziddiyyətlərin və maraqların kəsişdiyi əsas regionlardan biridir. Belə bir vaxtda dövlətin milli maraqlarına söykənən tarazlaşdırılmış xarici siyasət kursunun olması, eyni zamanda, adları çəkilən dövlətlərlə ikitərəfli münasibətlərdə əvvəlcədən elan edilən qəti şəkildə "tərəf olmamaq" xarici siyasət kursu (strategiyası) Azərbaycanın təhlükəsizliyini təmin edən əsas amillərdən biri olmuşdur.

– İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Rusiya ilə diplomatik münasibətləri və İranla bağlı apardığı rasional-praqmatik yanaşma formalaşmaqda olan yeni regional konfiqurasiyada ölkəmizin liderlik mövqeyini gücləndirmək üçün strateji əsas yaratmışdır.

– Bir-birinə qarşı kəskin mövqeyi ilə seçilən beynəlxalq aktorlar arasındakı bölgədə yerləşən Azərbaycan fasiləsiz diplomatik manevr vəziyyətindədir, öz maraqlarını üstün tutmaqla aparıcı region və dünya gücləri ilə əməkdaşlıq və kooperasiyaya açıq qalaraq çoxvektorlu siyasət qurur.

– Azərbaycanın coğrafi mövqeyi, iqtisadi, enerji, demoqrafik və intellektual potensialı, siyasi iradə və lider amili xarici siyasəti formalaşdıran əsas komponentlərdir. Ənənəvi energetika sahəsində aparılan çoxvektorlu (çoxcəhətli) uğurlu siyasət nəticəsində əməkdaşlıq arealının genişlənməsi, yaşıl enerji layihələri ilə bağlı Şərqi Avropa dövlətləri ilə əhəmiyyətli sazişlərin imzalanması və ya perspektivdə nəzərdə tutulması, nəqliyyat dəhlizi kimi bir sıra şərq ölkələrinin dünya bazarlarına çıxışında rolunun artması Azərbaycanı bir çox dövlətlər üçün vacib tərəfdaşa çevirmiş, ikitərəfli və çoxtərəfli münasibətləri dərinləşdirmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda aşağıdakı elmi yeniliklər mövcuddur:

– Əvvəlki tədqiqatlardan fərqli olaraq, bu tədqiqatda ilk dəfə müəyyən edilmişdir ki, Azərbaycanın çoxvektorlu xarici siyasəti və balanslı yanaşması ilə ABŞ, Aİ, Rusiya, Türkiyə və Çin kimi qlobal güclərin Cənubi Qafqazdakı maraqlarını tarazlaması, Zəngəzur dəhlizi layihəsi kimi təşəbbüslərlə çıxış etməsi, formalaşmaqda olan yeni

dünya düzənində ən əhəmiyyətli marşrutlardan olan Orta dəhlizin əsas halqalarından biri olmaqla qlobal ticarət yollarında mərkəzi mövqeyini gücləndirməsi regionda iqtisadi və siyasi sabitliyin təminatçısı kimi çıxış etməsinə şərait yaratmışdır.

– Elmi yenilik olaraq müəyyən edilmişdir ki, Azərbaycan və Türk dünyası arasında bütün sahələrdə inkişaf edən əməkdaşlıq Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanı gücləndirərək Azərbaycanın regional güc mövqeyini möhkəmləndirmiş, bu əməkdaşlıq həmçinin Rusiya və İranla balanslı siyasət aparmaqla yanaşı regionun geosiyasi mənzərəsini yenidən formalaşdırmağa töhfə vermişdir. Bu proses Azərbaycanın həm milli maraqlarını qorumağa, həm də Türk dövlətləri ilə strateji həmrəyliyi artıraraq, regional sabitlik və liderlik mövqeyini gücləndirməyə xidmət etmişdir.

–İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın xarici siyasətində neoimperializmə və neokolonializmə qarşı mübarizə platformaları xüsusi rol oynayır və bu istiqamətdə aparılan sistemli davamlı fəaliyyət Azərbaycanın beynəlxalq səviyyədə imicini yüksəltməklə yanaşı, onu beynəlxalq əlaqələr sistemində mühüm aktora çevirmişdir.

- Azərbaycanın xarici siyasi fəaliyyətində regional amil önə çıxarılmışdır.

- Azərbaycanın xarici siyasi fəaliyyətinin resurs və mexanizmləri hərtərəfli təqdim olunmuş, ölkənin ənənəvi enerji potensialından əlavə yaşıl enerji və nəqliyyat potensialına diqqət yetirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, işin nəticələri Azərbaycanın 44 günlük müharibədən sonrakı xarici siyasət prioritetlərinin formalaşması və inkişafı ilə bağlı bilikləri genişləndirir. Bu tədqiqat nəticəsində əldə olunan məlumatlar beynəlxalq münasibətlər və siyasi elmlər sahəsində dərsliklərin, monoqrafiyaların və dissertasiyaların hazırlanmasında mənbə rolunu oynaya bilər. Eyni zamanda, işin nəzəri çərçivəsi bu mövzuda gələcək tədqiqatların əsasını təşkil edərək müasir beynəlxalq münasibətlər nəzəriyyələrinin Azərbaycan kontekstində tətbiqinə töhfə verir.

Praktiki əhəmiyyəti isə tədqiqatın nəticələrinin analoji sahədə fəaliyyət göstərən tədqiqatçılar, xüsusilə də dövlət məmurları,

siyasətçilər, diplomatlar və xarici siyasət üzrə mütəxəssislər üçün faydalı ola bilməsidir. İşdə əldə olunan təhlil və təkliflər Azərbaycanın xarici siyasətindəki çağırışlara cavab olaraq strateji qərarların qəbulunda istifadə edilə bilinər.

**İşin aprobasiyası və tətbiqi.** Dissertasiyanın məzmunu, çıxarılan müddəalar, əldə olunan nəticələri müəllifin Azərbaycanda və ölkə hüquqlarından kənarda elmi nəşrlərdə çap edilən məqalələrində, iştirak və çıxış etdiyi respublika və beynəlxalq səviyyəli elmi konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya girişdən, üç fəsildən, yeddi paraqrafdan, nəticədən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ədəbiyyat siyahısı istisna olmaqla, ümumi həcmi 272 978 işarədən ibarətdir. Tədqiqat işinin struktur bölmələrinin ayrılıqda həcmi aşağıdakı kimidir:

- Giriş –23 611 işarə;
- Birinci fəsil 64 356 işarə, ikinci fəsil 66 735 işarə, üçüncü fəsil 108 139 işarə;
- Nəticə – 7 786 işarə.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "**Giriş**" hissəsində dissertasiya işinin mövzusunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, eyni zamanda məqsəd və vəzifələri müəyyənləşdirilmiş, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilmiş, müdafiəyə çıxarılan müddəalar verilmiş, işin strukturu və həcmi qısa şəkildə göstərilmişdir.

Tədqiqatın birinci fəsli "**Beynəlxalq münasibətlərdə xarici siyasətin nəzəri-metodoloji əsasları və Azərbaycan Respublikasının xarici siyasəti**" adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

"**Beynəlxalq münasibətlər nəzəriyyələri və Azərbaycan Respublikasının xarici siyasəti**" adlanan birinci yarımfəsildə

beynəlxalq münasibətlər sisteminin son dövrlərdə qlobal beynəlxalq aktorlar arasında gərginləşən geosiyasi mübarizənin təsiri ilə daha da mürəkkəbləşdiyi vurğulanır. Tədqiqat işinin birinci paraqrafında beynəlxalq münasibətlərin nəzəriyyələri və yanaşmaları ilə Azərbaycanın xarici siyasəti təhlil edilərək müqayisə edilmiş, müxtəlif nümunələrlə nəzəriyyə ilə təcrübə göstərilmişdir. Azərbaycanın xarici siyasəti bu nəzəriyyələrin müxtəlif aspektləri ilə izah edilir. Realizm, neorealizm çərçivəsində dövlətin münaqişənin həllində güc və qüvvələr balansının qorunması və təhlükəsizliyin təmin edilməsi siyasəti diqqətə alınır. Liberal və neoliberal yanaşma Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığına, enerji layihələrinə və qlobal inteqrasiyaya verdiyi töhfələrə fokuslanır. Postmüharibə dövründə yaşıl enerji və kommunikasiya – nəqliyyat xətləri ilə bağlı layihələr, Eyni zamanda, Ermənistan da daxil olmaqla qonşu dövlətlərə təklif edilən 3+3 (3+2) formatında regional layihələr buna misal ola bilər. Konstruktivist yanaşma ilə Azərbaycanın tolerant dövlət olması və multikulturalizm təşəbbüslərinin əhəmiyyəti vurğulanır. Postmodernist yanaşma isə Azərbaycanın beynəlxalq diskurslarda öz narrativini formalaşdırmaqla qlobal təsirini artırmağa yönəlmiş strategiyalarını vurğulayır. Beləliklə, Azərbaycanın xarici siyasəti milli maraqlar, əməkdaşlıq və ideyaların vəhdətində çoxşaxəli bir yanaşma sərgiləyir.

“**Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsasları**” adlanan ikinci yarımfəsildə Azərbaycanın xarici siyasətinin formalaşmasında və inkişafında baş verən proseslər, strateji dəyişikliklər və konseptual yanaşmalar təhlil edilir. 1990-cı illərdə Ümumilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə xarici siyasətdə rasional yanaşmanın üstünlük qazanması və azərbaycançılıq ideologiyasının milli siyasətin əsasına çevrilməsi vurğulanır. Həmçinin, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası müxtəlif güc mərkəzləri ilə əlaqələri tarazlaşdırmaq və milli maraqları qorumaq üçün praqmatik yanaşma olaraq təqdim edilir. Bununla yanaşı, prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın enerji siyasəti, iqtisadi və diplomatik resurslarının beynəlxalq inteqrasiyaya verdiyi töhfələr vurğulanır. Paraqrafda həmçinin normativ - hüquqi aktlara, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasına, Milli Təhlükəsizlik Strategiyasına, Hərbi Doktrinaya nəzər yetirilir və İkinci Qarabağ

müharibəsindən sonra bölgədə yeni hərbi, siyasi vəziyyətin yaranması ilə bu sahədə dəyişikliklərin olacağı ilə bağlı proqnoz verilir.

44 günlük müharibə və postmüharibə dövrü Azərbaycanın xarici siyasətində nəzərəçarpan dəyişikliklərə səbəb olmuş, sərt güc və yumşaq güc strategiyalarının ağıllı kombinasiyası ilə regional və qlobal arenada dövlətin nüfuzu artmışdır. Azərbaycanın Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatındakı aktiv iştirakı, həmçinin TANAP və TAP kimi enerji layihələrindəki rolu onun strateji mövqeyini gücləndirərək beynəlxalq təhlükəsizlik və regional sabitlik məsələlərinə töhfəsini artırmışdır. Prezident İlham Əliyevin liderliyi ilə aparılan balanslı siyasət, geosiyasi güclər arasında tarazlığı qoruyaraq, Azərbaycanın müstəqil mövqeyini və milli maraqlarını qorumağa imkan yaratmışdır. Bu yanaşma Azərbaycanın müasir qlobal çağırışlara uyğun olaraq öz xarici siyasətini yeniləməsi və gücləndirməsi ilə nəticələnmişdir.

Yarımfəsildə həmçinin qeyd edilir ki, prezident İlham Əliyevin siyasi kursu Azərbaycanın xarici siyasətində strateji çeviklik və çoxvektorlu yanaşma ilə seçilir. Bu kurs milli maraqların qorunmasını prioritet tutaraq, regional sabitliyin təmin edilməsi və qlobal platformalarda Azərbaycanın nüfuzunun gücləndirilməsinə yönəlmişdir. İ.Əliyev balanslaşdırılmış siyasət modeli ilə qlobal güclər, xüsusilə ABŞ, Rusiya, Avropa İttifaqı və Çin arasında balans yarada bilmiş, Azərbaycanın enerji resurslarının effektiv istifadəsi ilə ölkəni Avrasiyada mühüm strateji tərəfdaşa çevirmişdir. Eyni zamanda, Azərbaycanın Türk dünyası ilə inteqrasiyasını gücləndirmək, regional əməkdaşlıq təşəbbüslərini təşviq etmək və neoimperializmə-neokolonializmə qarşı qətiyyətli mövqeyi bu kursun konseptual dayanıqlığını və milli maraqlar üzərində qurulmuş effektivliyini göstərir.

Tədqiqatın ikinci fəsli "**Azərbaycan-Ermənistan münasibətləri postmüharibə dövründə**" adlanır. İkinci fəslin "**Ermənistan Respublikasının məğlubiyyəti, İkinci Qarabağ müharibəsinin nəticəsində yaranmış yeni geosiyasi reallıqlar**" adlanan ilk yarımfəslində Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində həyata keçirdiyi hərbi, diplomatik və siyasi tədbirlər geniş şəkildə təhlil olunur. Prezident İlham Əliyevin aprel döyüşlərindən sonra *"əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan*

*torpaqlarından rədd olsun"* ifadəsi və 44 günlük müharibəyə bir neçə gün qalmış BMT tribunasından ermənilərə etdiyi xəbərdarlıq vurğulanaraq müharibəyə aparan yol tətqiq edilir[29] [30]. Eyni zamanda, tarixi kontekst daxilində Ermənistanın Azərbaycan torpaqlarına yönəlmiş işğalçı siyasətinin əsassızlığı və 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın beynəlxalq hüquqa əsaslanan qələbəsi vurğulanır. Azərbaycanın Üçtərəfli Bəyanat çərçivəsində regionda yeni reallıqlar yaratdığı, Qarabağın statusunun müzakirə mövzusu olmadığı və Ermənistanın separatçılıq siyasətinin beynəlxalq səviyyədə uğursuzluqla nəticələndiyi qeyd edilir. Bu çərçivədə Laçın yolunda görülən tədbirlər, antiterror əməliyyatı və bu hadisələrin Azərbaycanın suverenliyi baxımından əhəmiyyəti diqqətə xüsusi olaraq çatdırılır.

Azərbaycanın azad edilmiş ərazilərdə dövlət suverenliyini təmin etmək istiqamətində həyata keçirdiyi addımlar təhlil edilir. Bu, minaların təmizlənməsi, qanunsuz iqtisadi fəaliyyətlərin dayandırılması və regionda reinteqrasiya səylərinin icrasını əhatə edir. Ermənistanın bu prosesə maneçilik göstərmək cəhdləri və separatçı qüvvələrin təxribatları fonunda Azərbaycanın prinsipial mövqeyi vurğulanır. Azərbaycanın sülh təşəbbüsləri və beynəlxalq hüquq çərçivəsində hərəkət etməsi regionda təhlükəsizlik və sabitlik təminatına yönəlmiş əsas tədbirlər kimi göstərilir. Postmünaqişə dövründə Azərbaycanın həyata keçirdiyi iqtisadi, nəqliyyat və təhlükəsizlik siyasəti geniş təhlil edilir. Azərbaycanın Zəngəzur dəhlizi layihəsi kimi təşəbbüsləri regional əməkdaşlıq və iqtisadi inteqrasiyanı təşviq etməklə yanaşı, ölkənin qlobal aktorlar üçün strateji əhəmiyyətini artırır. Beynəlxalq münasibətlər nəzəriyyələri, xüsusilə realizm, neorealizm, liberalizm, neoliberalizm, konstruktivizm və modernizm çərçivəsində Azərbaycanın apardığı xarici siyasət davranışı tədqiq edilir.

İkinci yarımfəsil isə "**Yeni geosiyasi şəraitdə Azərbaycan-Ermənistan münasibətləri**" adlanır. Bu yarımfəsildə Azərbaycan və Ermənistan arasındakı münasibətlərin Üçtərəfli Bəyanatın imzalanmasından sonrakı dövrdəki vəziyyəti, keçirilən görüşlər,

---

[29] A. Eyvazlı. Qalibiyyət: şahidlər və şəhidlər / Eyvazlı A. – Bakı: Mütərcim, - 2019. – s.13

[30] Vətən müharibəsi: [ elektron resurs} Azərbaycan Respublikasının Prezidentinin saytı. URL: https://president.az/az/pages/view/azerbaijan/karabakh2

səsləndirilən bəyanatlar, sülh müqaviləsi üzrə danışıqlar, regional nəqliyyat və kommunikasiya layihələri, delimitasiya – demarkasiya prosesi və beynəlxalq vasitəçilik səyləri ətraflı təhlil edilir.

Beynəlxalq vasitəçilik mexanizmləri, Rusiya, Avropa İttifaqı və ABŞ-ın danışıqlara yanaşmaları və dialoqdakı rolları geniş şəkildə tədqiq edilir. Müharibədən sonra Azərbaycanın sülh təşəbbüslərinə uyğun olaraq irəli sürdüyü 5 baza prinsipinin Ermənistan tərəfindən qəbul olunması çətinliklərlə qarşılaşsa da, Azərbaycanın sabitlik və əməkdaşlıq istiqamətindəki konstruktiv yanaşması ön plana çıxır. Ermənistanın regional güclər arasında balanssız siyasət yürütməsi, həmçinin Zəngəzur dəhlizi və Qərbi Azərbaycan məsələlərində qeyri-müəyyən yanaşması onun geosiyasi mövqeyini zəiflədir. Bundan başqa, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi Zəngəzur dəhlizi kimi strateji layihələr vasitəsilə regionda inteqrasiyanı genişləndirmək məqsədi qeyd edilir.

Həmçinin, Cənubi Qafqazda beynəlxalq güclərin rəqabətinin Azərbaycan-Ermənistan münasibətlərinə təsiri və Azərbaycanın yeni reallıqlar yaratma səyləri izah olunur. Azərbaycanın beynəlxalq hüquqa əsaslanan sülh siyasətinə baxmayaraq, Ermənistanın danışıqları gecikdirmək cəhdləri vurğulanır. Eyni zamanda, ABŞ, Avropa İttifaqı və Rusiyanın regiondakı rəqabəti bu aktorların Ermənistan-Azərbaycan münasibətlərinə təsir mexanizmləri müzakirə edilir. Azərbaycanın müstəqil və strateji siyasəti nəticəsində həm sərhədlərin delimitasiyası, həm də iqtisadi layihələrin irəliləməsi baxımından regionda üstün mövqe qazandığı göstərilir. Ermənistanın beynəlxalq platformalarda zəif təsir imkanları fonunda Azərbaycan öz geosiyasi təşəbbüslərini reallaşdırmağı bacarmış və sülh prosesi rəsmi Bakının tələbləri çərçivəsində davam edir.

Tədqiqatın sonuncu – üçüncü fəsli "**Dəyişən geosiyasi konfiqurasiya fonunda regionda güc balansı: Azərbaycan Respublikasının xarici siyasəti**" adlanır. Bu fəslin "**Azərbaycanın Türkiyə və Türk Dövlətləri Təşkilatı ilə münasibətlərinin inkişaf istiqamətləri**" adlanan ilk yarımfəslində Azərbaycan və Türkiyə arasındakı münasibətlər geniş şəkildə təhlil edilir. Əvvəlcə iki ölkə arasındakı enerji və nəqliyyat layihələri, xüsusilə TANAP, TAP, Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr vasitəsilə iqtisadi əlaqələrin dərinləşməsi vurğulanır. Eyni zamanda, hərbi əməkdaşlıq və birgə

təlimlər Azərbaycan Silahlı Qüvvələrinin güclənməsinə xidmət etmişdir. 44 günlük müharibədən sonra isə Azərbaycan-Türkiyə münasibətləri Şuşa Bəyannaməsi ilə yeni strateji əsas qazanaraq, hərbi-siyasi ittifaq səviyyəsinə yüksəlmişdir. Bu bəyannamə yalnız iki ölkə arasındakı hərbi və təhlükəsizlik əməkdaşlığını gücləndirməmiş, eyni zamanda Cənubi Qafqazda qüvvələr balansını Azərbaycanın və Türkiyənin xeyrinə dəyişmişdir.

Bununla yanaşı, yarımfəsildə Azərbaycanın Türk dünyası ilə əlaqələrinin gücləndirilməsi Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində inteqrasiyanın sürətlənməsi və Qarabağ zəfərinin Türk dövlətləri arasındakı birliyi daha da möhkəmləndirməsi kimi məqamlara diqqət edilir. Prezident İlham Əliyevin təşəbbüsləri ilə Orta Dəhliz, Zəngəzur dəhlizi və ortaq Türk əlifbası kimi strateji layihələr Türk dünyasının siyasi, iqtisadi və ideoloji inteqrasiyasını dərinləşdirir. Bu əməkdaşlıq yalnız regional deyil, qlobal səviyyədə də təsir yaradır. Azərbaycanın Türk dünyası ilə mədəni, hərbi və iqtisadi əlaqələrdə aktiv rolu, onu Türk dövlətləri arasında əsas birləşdirici qüvvəyə çevirmişdir. Beləliklə, yarımfəsil Azərbaycan-Türkiyə münasibətlərinin və Türk dünyası ilə əlaqələrin strateji xarakter alması, regionda yeni geosiyasi və iqtisadi dinamikalar yaratması üzərində qurulmuşdur.

Yarımfəsildə müəllif vurğulayır ki, Azərbaycanın Türkiyə ilə münasibətləri regionda mühüm balanslaşdırıcı rol oynayır. İki ölkə arasında xüsusilə enerji, müdafiə, təhlükəsizlik və nəqliyyat sahələrində möhkəmlənən strateji müttəfiqlik regional geosiyasi qüvvələr arasında tarazlığın təmin edilməsinə xidmət edir. Azərbaycanın Türkiyə ilə yaxınlığı həm də Türk Dövlətləri Təşkilatı çərçivəsində daha geniş regional əməkdaşlığı gücləndirir, bu isə digər aktorların təsir dairəsinin azaldılması ilə nəticələnir. Bu münasibətlər regionda strateji sabitliyin və Azərbaycanın müstəqil mövqeyinin qorunmasında mühüm rol oynayır.

Fəslin "**Cənubi Qafqazın mövcud geosiyasi durumunda Azərbaycanın Rusiya və İranla münasibətlərinin yeni aspektləri**" adlanan ikinci yarımfəslində qeyd edilir ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın xarici siyasəti bölgədə yeni geosiyasi reallıqlar yaratmış və Rusiya, İran kimi regional aktorlarla münasibətlərdə yeni dinamikalar formalaşdırmışdır. 2020-ci ildə

imzalanan Üçtərəfli Bəyanat və 2023-cü ildə keçirilən antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağdakı separatizm problemini həll etməsi Rusiya ilə münasibətlərdə yeni mərhələnin başlanğıcını qoymuşdur. Eyni zamanda, İranla münasibətlər Zəngəzur dəhlizi məsələsindəki ziddiyyətlər, anti-Azərbaycan ritorikası və dini təsir siyasəti səbəbindən daha da mürəkkəbləşmişdir.

Azərbaycanın İranla münasibətləri əsasən nəqliyyat və iqtisadi əməkdaşlıq üzərində qurulmuşdur. Lakin müharibədən sonra yaranmış yeni reallıqlar, xüsusilə Zəngəzur dəhlizi layihəsi iki ölkə arasındakı strateji rəqabəti dərinləşdirmişdir. İranın Ermənistanla əməkdaşlığı və bölgədəki yeni reallığı çətin həzm etməsi gərginliyi artırsa da, enerji və infrastruktur sahəsində əməkdaşlıq davam etdirilir. Bununla belə, İranın regionda təsirini genişləndirmək cəhdləri və dini ideologiyalar yaymaq niyyəti Azərbaycanın suverenliyinə qarşı təhdid olaraq dəyərləndirilir.

Vətən müharibəsindən sonra Azərbaycan-Rusiya münasibətləri əvvəlki dövrlə müqayisədə yeni bir mərhələyə keçid edib. Müharibədən əvvəl münasibətlər daha çox enerji, ticarət və regionda sabitliyin qorunması üzərində cəmlənmişdisə, müharibədən sonra bu münasibətlərdə təhlükəsizlik və regional nizamın tənzimlənməsi ön plana çıxmışdır. Xüsusilə, 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatdan sonra Rusiya Qarabağda sülhməramlı qüvvələr yerləşdirərək, regionda öz təsirini artırmağa çalışdı. Ancaq 2023-cü ildə Azərbaycanın antiterror tədbirlərindən sonra mövcud reallığı nəzərə almalı oldu. Müharibədən sonrakı dövrdə Rusiya Azərbaycanın müstəqil siyasətinə daha ehtiyatla yanaşır və Qərbin Cənubi Qafqazda artan aktivliyi fonunda Bakı ilə əməkdaşlığı dərinləşdirmək istəyir. Beləliklə, Azərbaycanın regionda artan rolu və çoxvektorlu siyasəti Rusiya ilə münasibətlərin daha özünəməxsus, amma qarşılıqlı maraqlara əsaslanan bir çərçivədə inkişafını şərtləndirir.

Paraqrafda, həmçinin Azərbaycan – Çin, BRİKS və MDB çərçivəsində Rusiya və digər aktorlarla əməkdaşlıq təhlil edilmişdir.

Tədqiqatın sonuncu yarımfəsli “**Dəyişməkdə olan geosiyasi proseslər fonunda Azərbaycan-ABŞ və Azərbaycan-Aİ münasibətlərinin səciyyəvi xüsusiyyətləri**” adlanır. Bu yarımfəsil Azərbaycanın Qərb dövlətləri, xüsusilə ABŞ və Avropa İttifaqı (Aİ) ilə əlaqələrinə və bu münasibətlərin strateji əhəmiyyətinə həsr olunmuşdur. Yarımfəsildə Azərbaycanın geosiyasi mövqeyi və enerji resurslarının

zənginliyinin Qərb üçün əhəmiyyəti vurğulanır. Həmçinin, Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı, neoimperializmə qarşı mübarizə siyasəti və müstəqil xarici siyasətinin inkişafı kimi aspektlər də ətraflı şəkildə araşdırılmışdır.

ABŞ-la münasibətlər enerji təhlükəsizliyi, regional sabitlik və geosiyasi dinamikalar çərçivəsində təhlil edilir. İkinci Qarabağ müharibəsindən sonra C.Bayden Administrasiyasının anti – Azərbaycan siyasəti münasibətlərdə müəyyən gərginliklər yaratmışdır. Bununla yanaşı, Azərbaycanın enerji ixracı, yaşıl enerji layihələri və Qərbin Rusiya qazından asılılığını azaltmaq üçün görülən işlər Azərbaycan-ABŞ münasibətlərində strateji əhəmiyyəti artırmışdır.

Avropa ilə münasibətlərdə inkişaf daha çox enerji təhlükəsizliyi və yaşıl enerji sahəsində əməkdaşlıqla bağlı olub. Bəzi Avropa mərkəzləri ilə onların apardığı birtərəfli siyasətlə əlaqədar müəyyən siyasi və geosiyasi məsələlərdə bəzi fikir ayrılıqları mövcuddur. Bununla belə, Azərbaycanın enerji resursları Avropanın enerji təhlükəsizliyi üçün əsas alternativ kimi göstərilir. Azərbaycan ilə Şərqi Avropa və Balkan ölkələri arasında strateji əməkdaşlıqlar vurğulanır. Gürcüstanın da iştirakı ilə yaşıl enerji və ənənəvi enerji ilə bağlı layihələrdən bəhs edilir. Azərbaycanın Fransa neokolonializminə qarşı apardığı effektiv siyasət haqqında danışılır, AŞ, AŞPA kimi qurumların ikili standartlara əsaslanan fəaliyyəti tənqid edilir.

Tədqiqatın "**nəticə və təkliflər**" hissəsində isə müəllif qeyd edir ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın xarici siyasətində yeni bir mərhələ açaraq, ölkənin regional liderlik mövqeyini gücləndirmiş və beynəlxalq arenada təsirini artırmışdır. Müharibədən sonra formalaşan geosiyasi reallıqlar Azərbaycanın xarici siyasətində enerji, nəqliyyat və dayanıqlı sülh istiqamətində strateji təşəbbüsləri ön plana çıxarmışdır. Azərbaycanın beynəlxalq əməkdaşlığı genişləndirmə, Türk dünyası ilə inteqrasiyanı gücləndirmə və regional təhlükəsizliyi təmin etmə siyasəti onun Cənubi Qafqazda əsas sabitləşdirici aktor kimi mövqeyini möhkəmləndirmişdir. Müxtəlif enerji və nəqliyyat layihələri, həm Azərbaycanın iqtisadi potensialını artırmış, həm də beynəlxalq güclər arasında balanslı siyasət yürütmə qabiliyyətini nümayiş etdirmişdir. Bununla yanaşı, Azərbaycanın çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ABŞ, Aİ, Rusiya və Çin kimi qlobal aktorlarla münasibətləri effektiv şəkildə idarə etməyə

imkan vermişdir. İranla gərginliklərə baxmayaraq, Bakı regional sabitlik və sülh təşəbbüsləri ilə qlobal və regional əməkdaşlıq üçün platformalar yaratmağa davam edir. Azərbaycanın enerji sahəsindəki qlobal mövqeyi, COP29 çərçivəsindəki təşəbbüsləri və neokolonializmə qarşı qətiyyətli mövqeyi onun həm regional, həm də beynəlxalq müstəvidə nüfuzunu artırmışdır. Zəngəzur dəhlizi və Qərbi Azərbaycana qayıdış kimi hədəflər rəsmi Bakının Ermənistanla danışıqlardakı mövqeyinə xüsusi çəki vermişdir.

Həmçinin, müəllif tərəfindən tövsiyə edilir ki, postmüharibə dövründə Azərbaycanın çoxvektorlu xarici siyasəti beynəlxalq münasibətlər nəzəriyyələri çərçivəsində daha dərindən araşdırılmalıdır, hansı ki, Azərbaycanın yeni geosiyasi reallıqlar kontekstində necə strateji üstünlüklər qazandığını və bunun regionun güc, qüvvələr balansına təsirini daha əhatəli başa düşməyə imkan verə bilər. Azərbaycanın postmüharibə dövründə enerji və kommunikasiya kimi strateji layihələrdə qurduğu balanslı siyasət modeli təcrübə olaraq öyrənilməlidir. Bu siyasətin əsas aspektləri – enerji marşrutlarının şaxələndirilməsi, regional güc mərkəzləri ilə tərəfdaşlıq və beynəlxalq təşkilatların proseslərə cəlb edilməsinin detallı şəkildə təhlili, oxşar reallıqlarda fəaliyyət göstərə biləcək strateji yanaşmaların hazırlaması məqsədəuyğun olardı. Xüsusilə, rəqabət aparan güc mərkəzləri – ABŞ, Rusiya və Avropa İttifaqı ilə əməkdaşlıq və rəqabəti paralel şəkildə idarə etmək üçün Azərbaycanın güc və qüvvələr balansını qoruma strategiyasının daha dərindən öyrənilməsi vacib sayıla bilinər.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. İşğaldan azad edilmiş bölgələrdə erməni vandalizmin ifşası və quruculuq siyasəti // İnsan və Biosfer jurnalı. Bakı, 2022. - s. 187-195.
2. Azərbaycan Respublikasının xarici siyasətinin normativ – hüquqi bazası və mövcud reallıqlar // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2023. №1, - s. 273-281.
3. Müasir regional çağırışlar fonunda Azərbaycanın beynəlxalq imici // Beynəlxalq konfransın materialları. – Bakı: Azərbaycan Universiteti, - 10 -mart- 2023. s. 155-157.

4. Tarixi Azərbaycan torpaqlarına qayıdış milli prioitetimizdir // Heydər Əliyev və müasir Azərbaycanın yeni inkişaf dövrü mövzusunda doktorant və dissertantların elmi – praktiki konfransının materialları. - Bakı: Dövlət İdarəçilik Akademiyası,- 12 - iyul -2023. s. 36-42.
5. Отношения с тюркским миром и Республикой Казахстан в контексте новых реалий внешней политики Азербайджана // Государственное управление и государственная служба, Казахстан. -2024. №2(89), - с. 107-114. https://journal.apa.kz/index.php/path/article/view/1228/917
6. Российское направление во внешней политике Азербайджанской Республики // Вестник ВГУ, -2024. №1, - с.78 – 81. http://www.vestnik.vsu.ru/pdf/history/2024/01/2024-01-12.pdf
7. Prezident İlham Əliyevin praqmatik xarici siyasət fəlsəfəsi və Qoşulmama Hərəkatı çərçivəsində diplomatik uğurlar // Geostrategiya jurnalı, - 2024. №3 (81), - s.16-20. https://geostrategiya.az/pdf/2024/0381.pdf
8. Современная внешнеполитическая деятельность Азербайджанской Республики и теории международных отношений // Тенденции развития научного сообщества в эпоху глобальных перемен .Сборник статей по итогам Международной научно-практической конференции. Омск: - 09 марта - 2024 г. - с. 24- 29 .
9. 44 günlük müharibəyə qədər və sonra Azərbaycan Respublikasının xarici siyasətinin xüsusiyyətləri // Azərbaycan Respublikasında davamlı inkişafın formalaşmasında Heydər Əliyevin rolu" mövzusunda elmi – praktiki konfrans. - Bakı: Dövlət İdarəçilik Akademiyası, -2 may - 2024. - s. 130-134. [Elektron versiya]. https://dia.edu.az/wp-content/uploads/2024/06/Konfrans-materiallari-2024.pdf
10. Отношения Азербайджана и ЕС: политико -экономические перспективы и вызовы // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə, - 2024. №2, - s. 229-237

Dissertasiyanın müdafiəsi “15” may 2025-ci il tarixində saat 13.30-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küçəsi, 74.

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “14” aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 03.04.2025
Kağızın formatı:A5
Həcm: 39.988
Tiraj:100